# QUBA-QUSAR RAYONLARINDA TƏRƏVƏZ-BOSTAN VƏ OT BİTKİLƏRİNƏ ZƏRƏR VERƏN FİTOFAQ GƏNƏLƏR

**Zöhrə Musayeva**

*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Zoologiya İnstitutu,*
*musayevazohra@mail.ru*

Fitofaq gənələrə ciddi zərərverici, əksər bitkilərdə, o cümlədən tərəvəz-bostan və ot bitkilərində qidalanaraq artan, geniş yoluxma arealına malik növlər daxildir. Bu gənələrin növ tərkibini, onların bioekoloji xüsusiyyətlərini öyrənmək məqsədilə 2021-2022-ci illərdə Böyük Qafqazın Quba-Qusar rayonlarında aparılan elmi tədqiqat və müşahidə işləri nəticəsində araxnoloji metodlarla yaz, yay və payız aylarında nümunələr toplanmışdır.

Toplanmış nümunələri işlədikdən sonra hazırlanan preparatlara əsasən, 18 növ fitofaq gənənin yayıldığı aşkar edilmişdir. Yüksək zərərvericilik xüsusiyyəti ilə fərqlənən və 3 fəsiləyə (*Tetranychidae, Bryobiidae, Eriohpyida*e) mənsub olan bu gənələrdən 10 növü ot, 8 növü isə tərəvəz-bostan bitkilərində aşkar edilmişdir.

**Cədvəl.** Quba-Qusar rayonlarından toplanmış fitofaq gənə növləri və yem bitkiləri

| N | Fitofaq gənə növləri | Yem bitkiləri |
|---|---|---|
| 1. | *Tetranychus viennensis, Tetranychus turkestani, Panonychus ulmi, Bryobia kakuliana, Bryobia redikorzevi, Aceria macrochella* | Üçyarpaq yonca |
| 2. | *Bryobia kakuliana, Tetranychus urticae* | Əməköməci |
| 3. | *Tetranychus viennensis, Tetranychus urticae* | Əkin sarmaşığı |
| 4. | *Tetranychus urticae, Vasates lycopersici,* | Pomidor |
| 5. | *Cecidophyes collegiatus**, Brevipalpus obovatus* | Nanə |
| 6. | *Brevipalpus obovatus, Phyllocoptes gibbosus, Bryobia longisetis, Tetranychus urticae* | Kartof, bibər |
| 7. | *Bryobia redikorzevi, Bryobia longisetis, Tetranychus viennensis, Tetranychus urticae* | Yer sarmaşığı |
| 8. | *Tetranychus viennensis* | Bağayarpagı |
| 9. | *Tetranychus urticae, Bryobia redikorzevi, Trimeroptes rubi** | Xiyar, turp, lobya |
| 10. | *Tetranychus urticae, Diptacus gigantorhynchus** | Badımcan, balqabaq |
| 11. | *Bryobia laqodechiana, Bryobia kakuliana* | Çuğundur, kələm, ispanaq |
| 12. | *Tetranychus urticae, Brevipalpus obovatus* | Günəbaxan, qarğıdalı |
| 13. | *Tetranychus urticae* | Südləyən, gülxətmi, gicitkən, əvəlik |
| 14. | *Tetranychus urticae, Eriophyes qracilis, Panonychus ulmi* | Çiyələk, böyürtkən |
| 15. | *Epitrimerus trilobus*, Tetranychus viennensis, Panonychus ulmi* | Kəndalaş |
| 16. | *Tetranychus urticae, Acalıtus essigi** | İtburnu |

* işarəsi ilə göstərilən növlər Azərbaycan faunası üçün yenidir.

Yekunda qeyd etmək olar ki, tərəvəz-bostan və ot bitkiləri üzərindən toplanan 18 növ gənədən 6 növü (*Tetranychus urticae, Tetranychus turkestani, Tetranychus viennensis, Bryobia redikorzevi, Panonychus ulmi, Brevipalpus obovatus*) əsasən ağac, kol, yarımkol, texniki bitkilərin zərərvericiləri olmaqla, həmin bitkilərin altında və ətrafında bitən ot bitkilərinə miqrasiya edirlər və ya əksinə, otlardan adı çəkilən bitkilərə keçərək, onların üzərində qidalanıb çoxalır və yenidən ağac və kol bitkilərinə keçir. Həmin fitofaq gənələr bu xüsusiyyətlərinə görə ciddi zərərverici hesab olunur.